**Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın**

# Q Ə R A R I

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya 2005-ci il 31 yanvar tarixdə keçirilmiş iclasında müzakirə edilmiş məsələlər üzrə aşağıdakıları **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin böyük referenti İnam İmdad oğlu Kərimov Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın (bundan sonra "Komissiya") Katibi təyin edilsin.

2. Komissiyanın Katibliyi 3 nəfərdən ibarət olaraq təşkil edilsin.

3. Komissiyanın Katibinə tapşırlısın ki, bir ay müddətində:

3.1. Komissiyanın İllik Fəaliyyət Planının və Katibliyin Əsasnaməsinin layihələrini, o cümlədən Katibliyin fəaliyyəti ilə bağlı digər təklifləri Komissiyaya təqdim etsin;

3.2. Komissiyanın internet saytının yaradılması üçün tədbirlər görsün.

4. Komissiyanın üvzləri arasında aşağıdakı sahələr üzrə vəzifə bölgüsü aparılsın:

| | | |
|---|---|---|
| 4.1. | Maliyyə xarakterli məlumatların qəbul edilməsi işinin təşkili üzrə | Komissiyanın sədri - Ramiz Mehdiyev |
| 4.2. | Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar qanunvericliyin təkmilləşdirilməsi sahəsi üzrə | Şahin Əliyev, Ziyafət Əsgərov |
| 4.3. | Dövlət Proqramının icrası vəziyyətinin öyrənilməsi üzrə | Fuad Ələsgərov, Şahin Əliyev |
| 4.4. | Beynəlxalq əməkdaşlıq məsələləri üzrə | Fərhad Abdullayev, Lətif Hüseynov |
| 4.5. | Korrupsiyaya qarşı həyata keçirilən cinayət təqibi tədbirlərinin vəziyyətinin və digər məlumatların öyrənilməsi və təhlili üzrə | Ramil Usubov, Zakir Qaralov, Ramiz Rzayev |

| | | |
|---|---|---|
| 4.6. | Ərizə, şikayətlərə baxılması və təhlili işi üzrə | Fuad Ələsgərov,<br>Bəxtiyar Əliyev |
| 4.7. | Kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları və digər qurumlarla iş üzrə | Əli Əhmədov,<br>Bəxtiyar Əliyev |

5. Komissiyanın tərkibində aşağıdakı *ad hoc* işçi qrupları yaradılsın:

5.1. qanunvericiliyin təkmilləşdirilməsi sahəsi üzrə;

5.2. analitik – informasiya işinin təşkili üzrə;

5.3. sosioloji sorğuların keçirilməsi üzrə;

5.4. korrupsiyaya qarşı mübarizə sahəsində monitorinqlərin həyata keçirilməsi üzrə.

6. *Ad-hoc* işçi qrupların fəaliyyətinə qeyri-hökumət təşkilatlarının, özəl sektorun və kütləvi informasiya vasitələrinin nümayəndələri cəlb edilsin.

7. Komissiyanın illik məruzəsi Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə hər ilin fevral ayında təqdim edilsin.

8. Korrupsiyaya qarşı mübarizədə maarifləndirmə və cəmiyyəti korrupsiyaya qarşı mübarizə ilə bağlı geniş məlumatlandırmaq məqsədi ilə korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının qanunvericilik aktları və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumatlar rəsmi dövlət qəzetlərində yenidən dərc edilsin.

9. Komissiyanın 2005-ci il 31 yanvar tarixli ikinci iclası ilə bağlı mətbuatda məlumat dərc edilsin.

10. Komissiyanın Katibi bu qərardan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri** **R.Mehdiyev**

Bakı şəhəri, 31 yanvar 2005-ci il
№ 2